**Rəsmiyyə Sabir qızı Abdullayeva**
**i.e.d., dos.**
**AMEA İqtisadiyyat İnstitutu**
**“İnklüziv sosial inkişaf” şöbəsinin müdiri**
**UOT:33; 338. JEL: A13; A19; F63; I31; I38.**

# Yoxsulluğun azaldılmasında sosial sahibkarlığın rolu

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanda yoxsulluğun azaldılmasında sosial sahibkarlığın rolunu araşdırmaqdan ibarətdir. Tədqiqatın metodologiyası – tədqiqat işində müqayisəli təhlil, ümumiləşdirmə, sorğu və korrelyasiya metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – Azərbaycanda yoxsulluğun azaldılması məqsədi ilə aparılan sosial-iqtisadi siyasət sahəsində qərar qəbul edənlər üçün faydalı ola bilər. Tədqiqatın nəticələri – Azərbaycanda sosial sahibkarlığın zəif inkişaf etdiyi müəyyənləşdirilmişdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – ilk dəfə olaraq Azərbaycanda yoxsulluğun azaldılmasında sosial sahibkarlığın rolu müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *rifah halı, sosial inkişaf, sosial sahibkarlıq, yoxsulluq səviyyəsi, məşğulluq, inklüzivlik*

## Problemin qoyuluşu

Məlum olduğu kimi, vətəndaşların hüquq və azadlıqları, o cümlədən də sosial hüquqları ilk növbədə dövlətin ali qanununda – Konstitusiyasında öz əksini tapır. 1991-ci ildə respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra, Azərbaycan vətəndaşlarının əsas hüquq və azadlıqlarını özündə ehtiva edən yeni Konstitusiya Aktı qəbul edildi və orada ölkə vətəndaşlarının sosial müdafiəsini təmin edən sosial hüquqlar təsbit olundu. Konstitusiyanın 16-cı maddəsinin 1-ci bəndində “Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır”, 15-ci maddəsinin 1-ci bəndində isə “Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi” qeyd olunub (Azərbaycan Respublikasının Konstitusiyası, 2016, s.13-25). İnsanların hüquq və azadlıqları, həmçinin müxtəlif beynəlxalq sənədlərdə də öz əksini tapır. Belə ki, 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Məclisində qəbul edilmiş “İnsan Hüquqlarının Ümumi Bəyannaməsi”ndə insan hüquqlarının əsas prinsipləri, 1966-cı ildə qəbul edilmiş “İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt”da əsas sosial, mədəni hüquqlar təsbit olunmuşdur. Bundan başqa, digər beynəlxalq aktlarda və bütün bu sənədlərin küll halında cəmləşdiyi “İnsan Hüquqları Haqqında Beynəlxalq Bill” də bu qəbildən olan sənədlər sırasına daxildir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasında sosial təminatla bağlı öz əksini tapan maddələr bir çox beynəlxalq–hüquqi aktlarla: “İnsan Hüquqlarının Ümumi Bəyannaməsi”, “Avropa Sosial Xartiyası”, “İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt”, Beynəlxalq Əmək Təşkilatının (BƏT) Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunmuş konvensiya və tövsiyələri ilə uyğunluq təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyasında və beynəlxalq sənədlərdə əks olunmuş sosial və mədəni hüquqların reallaşdırılması dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətdən bilavasitə asılıdır. Beynəlxalq təcrübə də bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın inkişaf etdirilməsinin və əhalinin sosial müdafiəsinin təmin olunmasının ilk növbədə ölkədə həyata keçirilən iqtisadi siyasətdən və onun tərkib hissəsi olan sosial siyasətin səmərəliliyindən asılı olduğunu göstərir. Sosial müdafiə vətəndaşların məşğulluğunu, sağlamlığını, sosial təminatını, təhsil səviyyəsini, mənzillə təminatını, sosial ədalətin qorunmasını və s. təmin etməlidir. Son illərdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr

sosial müdafiəni gücləndirməkdən ötrü öz sosial strategiyalarında ciddi dəyişikliklər edir, müxtəlif islahatlar həyata keçirirlər. Müasir şəraitdə dünya ölkələri, insanların tələbatlarına yanaşmalarını dəyişmək, eləcə də sosial siyasətdə dəqiqləşdirmələr aparmaq məcburiyyətindədirlər. Təsadüfi deyil ki, 1995-ci ildə Kopenhagendə 186 ölkənin nümayəndəsinin, o cümlədən 177 dövlət başçısının iştirakı ilə keçirilən “Sosial inkişaf üzrə Ümumdünya Konfransı”nda sosial strategiyanın iqtisadi planlaşdırmaya daxil edilməsini tanıyan Bəyannamə qəbul olundu. Bu Bəyannamədə dünya ölkələrinə sərvət və gəlirlərin daha ədalətli bölgüsünə çağırış edilirdi. 2000-ci ildə BMT-nin Baş Assambleyasının Cenevrədə keçirilən xüsusi sessiyası qlobal iqtisadiyyatda sosial ədalət və rifah məsələsinin önə çəkilməsi təşəbbüslərinə yeni impuls verdi. Azərbaycanda da son dövrlərdə həyata keçirilən sosial-iqtisadi siyasət, qəbul edilən proqramlar, strategiyalar və konsepsiyalar gəlirlərin ədalətli bölgüsünə, əhalinin sosial təminatının və sağlamlığının gücləndirilməsinə, məşğulluq və həyat səviyyəsinin yüksəldilməsinə, işsizlik və yoxsulluğun azaldılmasına, ümumiyyətlə, sosial müdafiə sisteminin təkmilləşdirilməsinə hədəflənmişdir. Aparılan sosial-iqtisadi siyasət nəticəsində işsizliyin və yoxsulluğun səviyyəsi azaldılmış, doğulanda gözlənilən ömür uzunluğu artmış, həyat səviyyəsi nəzərəçarpacaq şəkildə yüksəlmişdir. Bu istiqamətdə müəyyən irəliləyişlərə nail olunsa da, lakin ölkənin iqtisadi inkişaf tempi ilə sosial inkişaf tempi arasında uyğunsuzluq müşahidə edilməkdədir. Belə ki, sosial inkişafı xarakterizə edən bir sıra göstəricilər bəzi inkişaf etmiş (bəzən də inkişaf etməkdə olan) ölkələrin anoloji göstəriciləri ilə müqayisədə aşağı olmuş, beynəlxalq standartlara cavab verməmişdir. Ölkəmizdə işsizliyin və yoxsulluğun səviyyəsi rəsmi mənbələrdə göstərildiyindən daha yüksəkdir.

**Dünyada yoxsulluq və onunla mübarizə**

İnsan hüquqları haqqında ümumi Bəyannamənin 25-ci maddəsində göstərilmişdir ki, “hər bir insan özünün və ailəsinin sağlamlığının və rifahının təminatı üçün, qida, geyim, yaşayış yeri, tibbi qulluğun və zəruri sosial xidmətin də daxil olduğu, həyat səviyyəsi hüququna və işsizlik, xəstəlik, əlillilik, dulluq, qocalıq və ondan asılı olmayan səbəblərdən yaşayış vasitələrinin itirilməsi, digər hallarda təminat hüququna malikdir” (Council of Europe, 2022). Yoxsulluq isə insanların yuxarıda sadalanan təminat hüquqlarından məhrum olması deməkdir. İqtisadçı alim C.B.Quliyevin fikrincə “yoxsul olmaq və evsiz-eşiksiz qalmaq; ərzaq məhsullarından, geyimdən, məişət əşyalarından məhrum olmaq; xəstəlikdən əziyyət çəkmək və eyni zamanda müalicə imkanına malik olmamaq; peşə və ixtisasa yiyələnmək imkanından məhrum olmaq və s. deməkdir” (Quliyev, 2011, s.47). Yoxsullar, aztəminatlılar – onlar təkcə az gəlirli insanlar deyildir, həmçinin zəruri minimal istehlak standartlarından məhrumdurlar (Жеребин, 2002, s.300). Lakin yoxsulluq yalnız bu sadalananlarla məhdudlaşmır, əksər hallarda yoxsullar öz maraqlarını müdafiə və idarə etmək imkanlarından da məhrum olurlar. Ümumiyyətlə, “yoxsulluq” bir anlayış kimi insanın məhdudiyyətlə yaşamasını ifadə edir. İqtisadi nöqteyi–nəzərdən yoxsulluq, insanın özünün və ya ailəsinin təlabatlarını ödəmək üçün lazımi resurslarla (pul, əmlak, təhsil və s.) təmin edə bilməməsidir. Fikrimizcə, əmək fəaliyyəti göstərən hər hansı bir insanın aldığı əməkhaqqı və ya qazancı onun özünün və ailəsinin normal yaşayışını təmin etmirsə, işi olmasına baxmayarq, o, yoxsul hesab olunmalıdır. “Yeni yoxsulluq” anlayışı işləyənlərin qazancları ilə keçinə bilmədikləri üçün istifadə olunur və bu yoxsulluq, işləyən insanların həm özlərinə, həm də ailələrinə təsir göstərir” (Adıgüzel, 2011, s.326). 2018-ci ildə bütün dünyada işləyən işçilərin və onların ailələrinin 8 faizi ifrat yoxsulluq içində yaşamışdır (Human Development Reports, 2021).

Yoxsulluq qlobal sosial-iqtisadi problemdir. Dünyada elə bir ölkə yoxdur ki, orada yoxsulluq bu və ya digər formada özünü büruzə verməsin. Yoxsulluğun qlobal problemə çevrilməsi dünya ölkələrinin iqtisadi inkişafı ilə birbaşa əlaqədardır. Qeyd edək ki, daha varlı

20 ölkənin orta gəliri 20 yoxsul ölkənin orta gəlirindən 37 dəfə çoxdur. Dünya əhalisinin 1,3 milyard nəfəri təmiz içməli sudan məhrumdur, 2 milyardı sanitariya qaydalarına cavab verməyən şəraitdə və 2 milyard adam isə elektrik işığı olmadan yaşayır. Dünya əhalisinin 1 faizi şəxsi mülkiyyətin 40 faizinə sahiblik edir. Bu 1 faizin tərkibində 37 faiz amerikalı, 27 faiz isə yapondur (İqtisadi Tədqiqatlar Mərkəzinin Tədqiqat Qrupu, 2008). Göründüyü kimi, dünyada gəlirlərin və resursların bölgüsündə ciddi şəkildə qeyri-bərabərlik mövcuddur. Belə şəraitdə dünya ölkələri və müvafiq beynəlxalq təşkilatlar yoxsulluğun azaldılması istiqamətində islahatlar aparır, müxtəlif tədbirlər görürlər. Bu təşkilatlar dünya ölkələrində hökumətləri yoxsulluqla mübarizəyə təşviq edirlər. Baxmayaraq ki, bəzi ölkələrdə iqtisadi artım ildən-ilə sürətlənir, lakin həmin ölkələrdə də yoxsulluq problem olaraq qalır. BƏT qeyd edir ki, iqtisadi artım vacib göstərici olsa da, ancaq yoxsulluğun azaldılması üçün kifayət deyildir. Yoxsulluğun azaldılması müəssisələrdə, qanunvericilikdə və qaydalarda dəyişiklikləri nəzərdə tutur (International Labour Organization, 2021). İqtisadi inkişaf və yoxsulluqla bağlı K.S.İmanov yazır: "Dünya təcrübəsində belə bir situasiya da mövcud olur ki, o zaman iqtisadi artım, paradoksal da olsa, yoxsulluq səviyyəsini artırır. Məsələn, Meksika və Panamada yüksək artım templəri cəmiyyətdəki bərabərsizliyin dərinləşməsinə gətirib çıxartmışdır. Buna "yoxsulluq gətirən iqtisadi artım" da deyirlər" (İmanov, 2016). Ona görə də BMT, yoxsulluğu aradan qaldıran, "yoxsulların xeyrinə artım" anlayışını istifadə edir.

Yoxsulluğun azaldılması BMT-nin Minilliyin İnkişaf Məqsədlərinin əsas hədəfidir. 2000-ci ildə BMT-yə üzv olan bütün dövlətlər tərəfindən imzalanmış səkkiz məqsəd 2015-ci ilə qədər yoxsulluğun azaldılmasına nail olmaq məqsədi daşıyırdı. O vaxtdan bəri dünyada yoxsulluğun azaldılmasında xeyli irəliləyiş olmuşdur. 1990-cı ildən bəri 1,2 milyarddan çox insan ifrat yoxsulluqdan xilas edilmiş və uşaq ölümü yarıdan çox azalmışdır. Aparılan islahatlar öz töhfələrini verməkdəydi. Demək olar ki, 25 il ərzində ifrat yoxsulluq şəraitində yaşayan insanların sayı (gündə adambaşına 1,90 dollardan az) durmadan azalırdı. Təəssüf ki, bu tendensiya 2020-ci ildə COVID-19 pandemiyası səbəbindən dayandı. Nəzərə almaq lazımdır ki, 2020-ci ildə dünyanı bürüyən COVİD-19 pandemiyası da yoxsulluqla mübarizəni çətinləşdirmişdir. Mütəxəssislərin hesablamalarına görə (Danıel Gerszon Mahler, Nıshant Yonzan, Chrıstoph Lakner, R. Andres Castaneda Aguılar, Haoyu Wu, 2021) pandemiya 2020-ci ildə 97 milyondan çox insanı yoxsulluğa düçar etmişdir (Mahler, Yonzan, Lakner, Aguılar, Wu, 2021). Beynəlxalq təşkilatların, habelə hökumətlərin apardıqları islahatlar öz müsbət nəticələrini vermişdir (diaqram 1).

**Diaqram 1.**

**Dünyada yoxsulluq səviyyəsi (%)**




Mənbə: https://www.worldbank.org/en/understanding-poverty#a

Diaqramdan da göründüyü kimi, dünyada yoxsulluq səviyyəsi 2015-ci ildə 10,1% olduğu halda, 2021-ci ildə 7,8% təşkil etmişdir. Beynəlxalq təşkilatlar və hökumətlər yoxsulluqla

mübarizəni davam etdirirlər. 2030-cu ilə qədər, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin bir hissəsi olaraq, dünya liderləri hər yerdə ifrat yoxsulluğu aradan qaldırmağı hədəfləyirlər. Bu məqsədlə hökumətlər ölkələrdə islahatlar aparır və rifahı yaxşılaşdırmağa çalışırlar. Çoxsaylı islahatlara baxmayaraq, 700 milyondan çox insan və ya dünya əhalisinin 10 faizi hazırda ifrat yoxsulluq şəraitində yaşayır, səhiyyə, təhsil, su və kanalizasiyaya çıxış kimi ən əsas ehtiyacları ödəmək üçün mübarizə aparır. 1,3 milyard insan hədə də çoxfaktorlu yoxsuldur. Yoxsul əhalinin 67%-indən çoxu orta gəlirli ölkələrdə yaşayır. 644 milyonu (təxminən yarısı) 18 yaşdan kiçik uşaqlardır. 556 milyon (təxminən 85%) Afrikanın cənubunda yaşayır (Human Development Reports, 2021).

**Azərbaycanda yoxsulluq və onunla mübarizə**

Yoxsulluq problemi Azərbaycan üçün də xarakterikdir. Doğrudur, son illərdə ölkəmizdə aparılan islahatlar nəticəsində yoxsulluğun səviyyəsi xeyli aşağı düşmüşdür (diaqram 2).

**Diaqram 2.**

**Azərbaycanda yoxsulluğun həddi və yoxsulluq səviyyəsi**




Mənbə: https://stat.gov.az/source/budget_households/

Ölkəmizdə bu göstərici 2001-ci ildə 49% olduğu halda, 2020-ci ildə isə 5,9% təşkil etmişdir. Bunun da səbəbi son illərdə ölkəmizdə yoxsulluğun azaldılması ilə bağlı aparılan islahatlar olmuşdur. Belə ki, ölkəmizdə yoxsulluğun azaldılması ilə bağlı bir neçə Dövlət Proqramı (AR Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)", AR Prezidentinin 15 sentyabr 2008-ci il Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı") icra edilmişdir. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin daha da sürətləndirilməsi, yoxsulluq və işsizlik kimi sosial bəlaların aradan qaldırılması məqsədilə 24 noyabr 2003-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman verdi. Bunlardan başqa, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması, məşğulluğun təmin olunması, rifahın yaxşılaşdırılması üçün həyata keçiriləcək islahatların əsas istiqamətlərini müəyyənləşdirmişdir. Bunlarla yanaşı, son illərdə ölkəmizdə qəbul edilmiş bir sıra strategiya və proqramlar da əhalinin məşğulluğunun təmin olunmasına, yoxsulluğun azaldılmasına xidmət edir. AR Prezidentinin 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "AR-

nın Məşğulluq Strategiyası (2006-2015-ci illər)” və AR Prezidentinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “AR-nın Məşğulluq Stategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)”, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” və “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”, “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” da ölkəmizdə yoxsulluğun azaldılmasına, məşğulluğun səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir.

Yoxsulluğun azaldılması, məşğulluğun təmin olunması, rifahın yaxşılaşdırılması sosial müdafiə və sosial təminata ayrılan xərclərin artırılmasını tələb edir. Lakin son illərdə sosial müdafiə və sosial təminata dövlət büdcəsindən ayrılan vəsaitlərin payı azalmışdır. Belə ki, 2001-ci ildə sosial müdafiə və sosial təminat xərclərinin büdcədəki payı 18,1% idisə, 2019-cu ildə bu göstərici təqribən 2 dəfə az – 9,3% təşkil etmişdir (diaqram 3).

**Diaqram 3.**

**Sosial xərclərin büdcə xərclərindəki payı (%)**




Məlum olduğu kimi, sosial xərclərlə yoxsulluq arasında yüksək əks korrelyasiya əlaqəsi mövcuddur. Yəni, dövlət tərəfindən sosial xərclər artdıqca yoxsulluğun səviyyəsi aşağı düşür. Aşağıdakı diaqramda Azərbaycanda dövlət büdcəsindən sosial müdafiə və sosial təminata ayrılan xərclərlə yoxsulluq səviyyəsi arasındakı asılılıq göstərilmişdir (diaqram 4).

**Diaqram 4.**

**Dövlət büdcəsindən sosial müdafiə və sosial xəminata ayrılan xərclərlə yoxsulluq səviyyəsi arasında asılılıq**



Göründüyü kimi, Azərbaycanda da sosial xərclərlə yoxsulluğun səviyyəsi arasında yüksək (r=0,72) korrelyasiya asılılığı var. Məlum olduğu kimi, məşğulluq imkanlarının genişləndirilməsi yoxsulluğun azaldılmasında mühüm vasitələrdəndir. Lakin Azərbaycanda məşğulluğun (xüsusilə də səmərəli məşğulluğun) səviyyəsinin yüksəldilməsi ilə bağlı bir sıra problemlər mövcuddur. Ölkəmizdə işsizliyin və yoxsulluğun səviyyəsi rəsmi mənbələrdə göstərilənlərdən daha yüksəkdir. Bunu ölkəmizdə əhalinin strukturuna nəzər saldıqda da görmək mümkündür. Belə ki, mütəxəssislərin hesablamalarına görə ölkəmizdə əhalinin tərkibində orta təbəqənin xüsusi çəkisi aşağıdır. V.Qasımlının fikrincə, "Azərbaycanda yoxsulluğun azalması ilə yanaşı orta təbəqə də genişlənməlidir" (Qasımlı, 2014 s.146). R.Aslanlıya görə Azərbaycanda orta təbəqə 29 faiz (Aslanlı, 2016), T. Hüseynovun gəlir metodu ilə apardığı hesablamalara görə 5% təşkil edir (Hüseynov, 2013). Professor N.Müzəffərlinin (İmanovun) hesablamalarına görə, Azərbaycanda orta sinfin üç üsulla - gəlirlərə, istehlaka və bank depozitlərinə görə hesablanmış göstəriciləri bir-birinə çox yaxındır və 22-24% arasındadır (Müzəffərli, 2014, s.224). Bizim hesablamalarımıza görə (ev təsərrüfatlarında 3-cü və 6-cı gəlir desilləri arasında gəlirə sahib olanlar) 2018-ci ildə Azərbaycanda əhalinin təxminən 26%-ni orta təbəqə təşkil etmişdir. Əhalinin tərkibində orta təbəqənin azlığı yoxsul təbəqənin payının yüksək olmasından xəbər verir.

**Sosial sahibkarlığın üstünlükləri**

Son illərdə dünyada yoxsulluğun azaldılmasında istifadə olunan alətlərdən biri də sosial sahibkarlığın inklişaf etdirilməsidir. Sosial sahibkarlıq XX əsrin sonlarında yaradılmış fəaliyyət növüdür. Sosial sahibkarlığın yaranması yoxsulluğun azaldılması, müxtəlif sosial problemlərin həllindən irəli gəlmişdir. Bununla bağlı çoxsaylı baxışlar mövcuddur. Martin və Osbergə görə sosial sahibkarlıq yoxsulluq, ekoloji deqradasiya, təcrid və marginallaşma kimi sosial problemlər səbəbindən yaranmışdır (Martin və Osberg, 2007). Alvarez və Barneyin də sosial sahibkarlıqla bağlı fikirləri Martin və Osbergin fikirləri ilə oxşardır. Alvarez və Barneyə görə sosial sahibkarlar cəmiyyətdə yoxsulluq, təcrid və marjinallaşma kimi sosial problemlər səbəbindən meydana gəlmişdir. Onlar qeyd edirlər ki, bu kimi sosial problemlərin həlli üçün bəzi insanlar biznes və ya sahibkarlıq prinsiplərindən istifadə edərək sosial problemlərin həllinə təşəbbüs göstərmişlər (Alvarez və Barney, 2014). Fahad Sultan, Junaıd Ahmad, Asad Sarfaraz Khan, Raza Ur Rahmana görə də sosial sahibkarlıq yoxsulluğa qarşı mübarizə aparmaq və cəmiyyətin inkişafını təşviq etmək üçün bir vasitədir (Sultan, Ahmad, Khan, Rahman, 2018). Sosial sahibkarlar iqtisadi inkişaf kimi yoxsulluğun azaldılmasında da mühüm rol oynayırlar (Tanchangya, Yingjing, Chowdhury, 2020).

Sosial sahibkarlıq ənənəvi sahibkarlıqdan bir sıra xüsusiyyətlərlə fərqlənrir. Ənənəvi sahibkarlıqda əsas məqsəd mənfəətin əldə olunmasıdırsa, sosial sahibkarlıqda isə həssas qrupların məşğulluğunun təmin olunması, yoxsulluğun azaldılması, rifahın yaxşılaşdırılması, inklüzivliyin artırılması, sosial müdafiənin gücləndirilməsidir. Sosial sahibkarlıqda sosial rifah birinci, mənfəət isə ikinci dərəcəli hesab olunur.

Sosial sahibkarlar maddi fayda və mənfəəti ikinci plana alaraq, əsas hədəf kimi sosial problemlərin həllini seçirlər (İsmayılova, 2020). Sosial sahibkarlıqda mənfəətin böyük bir hissəsi səhmdarlara dividendlər deyil, qarşıya qoyulmuş məqsədlərin çatmaq üçün sərmayə kimi istifadə edilir. Beləliklə, bu, yoxsulluğun və ətraf mühitin pisləşməsinin səbəblərini aradan qaldırılmasına xidmət edən perspektivli bir yanaşmadır (Swinburn, 2008).

Məlum olduğu kimi, sosial sahibkarlığın yaradılması Nobel mükafatı laureatı, Banqladeşli Məhəmməd Yunisin adı ilə bağlıdır. O, 1976-cı ildə "Grameen Bank"ı yaratdı. Bu bank "Yoxsullar üçün bank" adlanırdı. Bank insanların girov tələb etmədən kiçik kreditlərə çıxışını təmin edirdi. Yarandığı vaxtdan indiyə kimi bank 7 milyon insana 3 milyard dollardan çox

kredit vermişdir (Shin, 2022). Bankın məlumatına görə, kredit götürənlərin 50%-indən çoxu yoxsulluqdan xilas olmuşdur.

Sosial sahibkarlıq sosial problemlərin həllinə istiqamətlənməklə yanaşı, həm də inklüzivliyin artırılmasına, sosial kapitalın formalaşmasına xidmət edir. Azmata görə sosial sahibkarlığın inkişaf trendi dünyada yeni iş yerləri, yeni iş imkanları yaratmaqla, sosial kapitalı formalaşdırmaqla yoxsulluğun azaldılmasına yönəlmişdir və o, cəmiyyətdəki innovativ təşəbbüsləri yeni institusional formada inkişaf etdirir (Azmat, 2013). Sosial sahibkarlığın üstün tərəflərindən biri də odur ki, o işləmək istəyən, lakin iş tapmaqda çətinlik çəkən insanların işlə təmin olunmasına imkanlar yaradır. Beləliklə də, dövlətin sosial yükünün yüngülləşdirilməsində mühüm rol oynayır. Bununla da sosial sahibkarlar dövlət siyasətinin həyata keçirilməsində hökumət orqanlarına yardım etmiş olurlar (Defourny, Kim, 2011). Bizim fikrimizcə də, sosial sahibkarlığın inkişaf etdirilməsi yaxın perspektivdə sosial xərcləri artırsa da, uzunmüddətli perspektivdə dövlətin sosial yükünü yüngülləşdirir. Bunlarla yanaşı, sosial sahibkarlıq iqtisadi artımı da sürətləndirir.

**Azərbaycanda sosial sahibkarlığın mövcud vəziyyəti**

Azərbaycanda son illərdə sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı əsaslı islahatlar aparılır. Bunun nəticəsidir ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 2015-ci ildə 80-ci yerdə olduğu halda, 2016-cı ildə 63-cü, 2018-ci ildə 57-ci, 2020-ci ildə isə 28-ci yerdə qərarlaşmışdır (World Bank, 2022). Lakin son illərdə dünyada sürətlə inkişaf etməkdə olan sosial sahibkarlığın inkişaf səviyyəsi ölkəmizdə qənaətbəxş deyil. Bunun bır sıra səbəbləri vardır. Azərbaycanda sosial sahibkarlıq daha çox özünüməşğulluq formasında təzahür edir. "Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən Özünüməşğulluq proqramı həyata keçirilir. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 2022). Dövlət Məşğulluq Agentliyinin məlumatlarına əsasən 2022-ci ilin ilk altı ayı ərzində isə 5028 nəfər, ümumilikdə isə 2017-2022-ci illərdə 52 051 nəfər özünüməşğulluq proqramına cəlb edilmişdir. Özünüməşğulluq proqramlarına cəlb edilənlərin sayı 2017-ci illə müqayisədə 2021-ci ildə təqribən 14 dəfə artmışdır (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 2022).

**Diaqram 5.**

**Özünüməşğulluq proqramına cəlb edilənlərin sayı (nəfər)**




Mənbə: https://dma.gov.az/fealiyyet/statistics

Özünüməşğulluq proqramı mikro və kiçik sahibkarlıq fəaliyyətinə başlamaq istəyənlər üçün əlverişli imkanlar yaratdığından, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) 2019-cu ildən bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi ilə sıx əməkdaşlıq edir, proqramın müxtəlif mərhələlərində dəstək göstərir. 2019-2020-ci illərdə 400-ə yaxın vətəndaş özünüməşğulluq proqramına qoşulmaq üçün KOBİA-nın xidmətlərindən yararlanmışdır (Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, 2022). Maraqlı cəhət burasındadır ki, aparılan islahatlara və görülən tədbirlərə baxmayaraq, ev təsərrüfatları büdcəsinin statistik təhlilləri göstərir ki, son illərdə özünüməşğulluqdan gəlirlərin xüsusi çəkisi aşağı düşmüşdür. Belə ki, 2005-ci ildə bu göstərici 42,1% olduğu halda, 2021-ci ildə 33,6% təşkil etmişdir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). Bu isə özünüməşğulluq proqramlarının davamlı olmamasını göstərir. Halbuki, sosial sahibkarlıq özünüməşğulluqdan fərqli olarq davamlı xarakterə malikdir.

Azərbaycanda sosial sahibkarlıq sahəsində bir sıra problemlər mövcuddur. Ölkəmizdə bu sahədə qanunvericilik bazası təkmil deyil. Sosial sahibkarlıq, və onun təşkilati-hüquqi forması olan sosial müəssisələrlə bağlı ayrıca qanun yoxdur. Sosial müəssisə anlayışı "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapıb. Qanunun 1.1.20-ci maddəsinə əsasən, "sosial müəssisə – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxsdir". Qanun sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə "əlilliyi olan şəxsləri, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları, 20 yaşadək gəncləri, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynləri, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynləri, pensiya yaşına iki ildən az qalmışları" aid edir (AR Məşğulluq haqqında qanunu, 2018). Qeyd etmək lazımdır ki, dünya təcrübəsində sosial müəssisələrin işçilərinin kateqoriyası bunlarla məhdudlaşmır. Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı ilə "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları" təsdiq edilmişdir. Qərara əsasən sosial müəəsisələrin standartları müəyyənləşdirilmişdir (ARNK, 2020).

Sosial sahibkarlıq və sosial müəssisələrlə bağlı bir sıra ölkələrdə (İngiltərə, Almaniya, Danimarka, Yunanıstan, İtaliya, Serbiya, Bolqarıstan, Rusiya və s.) ayrıca qanunlar mövcuddur. Sosial sahibkarlıqla bağlı mövcud problemlərdən biri də Azərbaycanda əhali arasında məlumatlılıq səviyyəsinin aşağı olmasıdır. Azərbaycanda sosial sahibkarlıqla bağlı mövcud vəziyyəti qiymətləndirməkdən ötrü Google-Survey vasitəsi ilə keçirdiyimiz sorğuda 100 iqtisadçı iştirak etmişdir. "Sosial sahibkarlıq haqqında məlumatınız varmı?" sualına respondentlərin 72,5%-i "bəli", 22,5%-i "qismən məlumatlıyam" cavabını vermişdir. Bu suala "xeyr" deyənlərin sayı 5% təşkil etmişdir. Bu da onu göstərir ki, iqtisadçılar arasında belə, sosial sahibkarlıqla bağlı məlumatı olmayanlara rast gəlmək mümkündür. "Azərbaycanda sosial sahibkarlıqla bağlı vəziyyəti necə qiymətləndirirsiniz?" sualını cavablandıranların 54,5%-i vəziyyəti "qeyri-qənaətbəxş", 36,4%-i "qənaətbəxş" hesab etmişdir. Respondentlərin 9,1%-i isə "digər" versiyasını seçiblər. Göründüyü kimi, sorğuda iştirak edənlərin yarıdan çoxu vəziyyəti məqbul hesab etməyib. "Azərbaycanda sosial sahibkarlığın inkişafına mane olan amillər hansılardır?" sualını cavablandıranların 59,6%-i məlumatsızlığı, 47,5%-i maliyyə çatışmazlığını, 36,4%-i qanunvericilik bazasının yetərli olmamasını, 27,3%-i biznes mühitinin əlverişsizliyini səbəb göstərmişdir. Qeyd etmək lazımdır ki, respondentlərə bir neçə cavab seçmək imkanı verildiyindən, cavabların toplam faizi 100-dən çoxdur. Göründüyü kimi, keçirdiyimiz sorğunun nəticələri də ölkəmizdə sosial sahibkarlıqla bağlı problemlərin sırasında əsasən məlumatsızlığı, maliyyə çatışmazlığını, qanunvericilik bazasının təkmil

olmamasını səbəb göstərirlər. “Azərbaycanda sosial sahibkarlığın inkişafı üçün nələri zəruri hesab edirsiniz?” sualını cavablandıranların 67,3%-i “əhali arasında maarifləndirmənin aparılması”nı, 54,5%-i “dövlət dəstəyinin olması”nı, 44,6%-i “kredit əlçatarlığının təmin edilməsi”ni, 41,6%-i “qanunvericilik bazasının təkmilləşdirilməsi”ni, 33,7%-i “idxal-ixrac prosedurlarının sadələşdirilməsi”ni zəruri hesab ediblər. Bu sualda da respondentlərə bir neçə cavab seçmək imkanı verildiyindən cavabların toplam faizi 100-dən çoxdur. Fikrimizcə də, ölkəmizdə sosial sahibkarlığın inkişaf etdirilməsi üçün əhali arasında maarifləndirmə işi aparılmalıdır. Bundan başqa, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinə, dövlət dəstəyi müxanizminin yaradılmasına zərurət vardır. Məlum olduğu kimi, 2022-ci ilin iyul ayının 22-də “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” qəbul edilmişdir. Strategiyada göstərilir ki, “özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaqdır. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaqdır. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək” (1). Fikrimizcə, bu strategiya ölkəmizdə sosial sahibkarlığın inkişafına müsbət təsir göstərəcəkdir.

**Nəticə**

Aaparılan təhlildən də aydın oldu ki, ölkəmizdə sosial sahibkarlığın inkişaf səviyyəsi aşağıdır. Bu sahədə Azərbaycanda qanunvericilik bazası təkmil deyil. Ölkəmizdə sosial sahibkar kimi fəaliyyət göstərənlərin sayı çox azdır. Ümumiyyətlə, bu mövzu ilə bağlı əhali arasında maarifləndirmə səviyyəsi aşağıdır. Sosial sahibkarlıq ölkəmizdə yoxsulluğun azaldılmasında, məşğulluğun səviyyəsinin yüksəldilməsində elə də mühüm rol oynamır. Halbuki, sahibkarlığın bu növünün inkişaf etdirilməsi yoxsulluğun səviyyəsinin azaldılması, məşğulluğun səviyyəsinin yüksəldilməsi, rifah halının yaxşılaşdırılması ilə yanaşı, dövlətin sosial yükünün azaldılmasına, iqtisadi artımın yüksəldilməsinə gətirib çıxaracaqdır. Ölkəmizdə sosial sahibkarlığı inkişaf etdirməkdən ötrü əhali arasında məlumatlılıq səviyyəsi artırılmalı, mövcud qanunvericilik bazası təkmilləşdirilməlidir. Bunlardan başqa, sosial sahibkarlığın inkişafından ötrü dövlət tərəfindən stimullaşdırıcı mexanizm hazırlanmalıdır.

***Bu iş Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən “Azərbaycanda sosial sahibkarlığın inkişafı üzrə təklif və tövsiyələrin hazırlanması” layihəsinin icrası əsasında yerinə yetirilmişdir. Qrant № 562/22/1NM2F0K/Y/A1***

Ədəbiyyat

Adıgüzel, M. (2011). Ekonomik, Kültürel ve Politik küreselleşme ve sonucları. İstanbul: Nobel akademik yayıncılık. 416 s.

Alvarez, S.A. and Barney, J.B., (2014). Entrepreneurial opportunities and poverty alleviation. Entrepreneurship theory and practice, 38(1), pp.159-184

ARNK. (2020). Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları”nın təsdiq edilməsi haqqında Qərarı. URL: http://e-qanun.az/framework/44813

Aslanlı, R. (2016). Azərbaycanda orta təbəqə 29 faizə çatıb. Bakı. URL: https://azvision.az/news/107644/azerbaycanda-orta-tebeqe-29-faize-catib-rufet-aslanli.html

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2022). Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. URL: https://e-qanun.az/framework/50013

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2022). Ev təsərrüfatları büdcəsi. URL: https://stat.gov.az/source/budget_households/

Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2022, a). Özünüməşğulluq. URL: https://www.sosial.gov.az/umumimelumatozunumewgulluq

Azərbaycan Respublikasının Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2022, b). Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən işlərin nəticələri: 2022-ci il üzrə nəticələrimiz (01.01.2022- 31.07.2022) URL: https://dma.gov.az/fealiyyet/statistics
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. (2022). KOBİA özünüməşğulluq proqramına dəstəyini davam etdirir. URL: https://smb.gov.az/az/all-news/kobia-ozunumesgulluq-proqramina-desteyini-davam-etdirir
Azərbaycan Respublikasının Konstitusiyası. (2016). Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 85 s.
AR Məşğulluq haqqında qanunu (http://e-qanun.az/framework/39846)
Azmat, F. (2013). Sustainable development in developing countries: The role of social entrepreneurs. International Journal of Public Administration, 36(5), pp.293-304.
Council of Europe. (2022). Ümumdünya İnsan Hüquqları Bəyannaməsi. URL: https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-
Defourny, J. and Kim, S.Y. (2011). Emerging models of social enterprise in Eastern Asia: a cross-country analysis. Social enterprise journal, 7(1), pp.86-111.
Human Development Reports. (2021). URL: https://hdr.undp.org/content/2021-global-multidimensional-poverty-index-mpi?utm_source=EN&utm_medium=GSR&utm_content=US_UNDP_PaidSearch_Brand_English&utm_campaign=CENTRAL&c_src=CENTRAL&c_src2=GSR&gclid=CjwKCAjww8mWBhABEiwAl62ReuEv4U0LazefEgsUXidZDhkR6i5TfBbExFYyRtkmoTzTpnp2yuP9xoCZZEQAvD_BwE#/indicies/MPI
Hüseynov, T.H. (2013). Azərbaycanda orta təbəqə: reallıqlar və problemlər. Bakı. URL: http://www.azerbaijan-news.az/view-26911/Az%C9%99rbaycanda-orta-t%C9%99b%C9%99q%C9%99:-reall%C4%b1qlar-v%C9%99-probleml%C9%99r
International Labour Organization. (2021). Economic and social development. Genève. URL: https://www.ilo.org/global/topics/economic-and-social-development/lang--en/index.htm
İqtisadi Tədqiqatlar Mərkəzinin Tədqiqat Qrupu. (2008). Gəlirlərin bölgüsündə bərabərlik. Bakı. URL: http://www.erc.az/files/file/gelirlerin_bolgusunde_beraberlik.pdf
İmanov, K. (2016). Azərbaycan son 10 ildə: rifah və kreativlik yolu ilə. Bakı: Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi. 38 s.
İsmayılova, A. (2020). Qazancdan çox, fayda vermək imkanı - Sosial Sahibkarlıq nədir? URL: https://eduhub.az/az/post/qazancdan-cox-fayda-vermek-imkani---sosial-sahibkarliq-nedir-237
Qasımlı, V. (2014). İqtisadi modernizasiya. Bakı: Şərq-Qərb nəşriyyatı. 312 s.
Quliyev, C.B. (2011). Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Bakı: Avropa, 235 s.
Mahler, D.G., Yonzan, N., Lakner, C. R. Aguılar, A.C., Wu, H. (2021). Updated estimates of the impact of COVID-19 on global poverty: Turning the corner on the pandemic in 2021?. URL: https://blogs.worldbank.org/opendata/updated-estimates-impact-covid-19-global-poverty-turning-corner-pandemic-2021
Martin, R. L., & Osberg, S. (2007). Social entrepreneurship: The case for definition. Stanford: Stanford social innovation review, 5(2), 28-39.
Müzəffərli, N. (2014). İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. Bakı: Şərq-Qərb Nəşriyyat Evi. 269 s.
Shin, H. (2022). Social Entrepreneur Muhammad Yunus and Grameen Bank. URL: https://www.futurelearn.com/info/courses/social-innovation/0/steps/86961
Sultan, F., Ahmad, J., Khan, A.S., Rahman, R.U. (2018). The Role of Social Entrepreneurship in Poverty Reduction. Pakistan: Journal of Business and Tourism, 04(01)
Swinburn, G. (2008). Local Economic Development: A Primer Developing and Implementing Local Economic Development Strategies and Action Plans. Washington D.C.: World Bank.
Tanchangya, P., Yingjing, C., Chowdhury, N.H. (2020). Social Entrepreneurs Role on Poverty Reduction Through Job Creation. China: School of Business Department Zhengzhou, URL: https://www.researchgate.net/publication/339768497_SOCIAL_ENTREPRENEURS_ROLE_ON_POVERTY_REDUCTION_THROUGH_JOB_CREATION

World Bank. (2022). URL: http://www.worldbank.org
Жеребин, В.М. (2002). Уровень жизни населения. Москва: ЮНИТИ – DANA, 592 с.

***Расмия Сабир гызы Абдуллаева***

***Роль социального предпринимательства в сокращении бедности***

***Резюме***

*Цель исследования - изучить роль социального предпринимательства в снижении уровня бедности в Азербайджане. Методология исследования – в работе использовались методы сравнительного анализа, обобщения, опроса и корреляции. Прикладная значимость исследования – оно может быть полезно лицам, принимающим решения в области социально-экономической политики, направленной на снижение уровня бедности в Азербайджане. Результаты исследования – установлено, что в Азербайджане слабо развито социальное предпринимательство. Оригинальность и научная новизна исследования – впервые определена роль социального предпринимательства в снижении уровня бедности в Азербайджане.*

***Ключевые слова****: состояние благосостояния, социальное развитие, социальное предпринимательство, уровень бедности, занятость, инклюзия*

***Rasmiyya Sabir Abdullayeva***

***The role of social entrepreneurship in poverty reduction***

***Abstract***

*The study aims to investigate the role of social entrepreneurship in reducing poverty in Azerbaijan. Research methodology – comparative analysis, generalization, survey, and correlation methods were used in the research. Application significance of the research – it can be useful for decision-makers in the field of socio-economic policy aimed at reducing poverty in Azerbaijan. The results of the research – it was determined that social entrepreneurship is poorly developed in Azerbaijan. The originality and scientific novelty of the research – for the first time, the role of social entrepreneurship in reducing poverty in Azerbaijan was determined.*

***Keywords:*** *state of well-being, social development, social entrepreneurship, poverty level, employment, inclusion*

***Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov***
***Daxil olub: 12.09.2022.***
***Çapa qəbul olunub: 19.09.2022.***